# ATƏT-in Ofisi Azərbaycanda Özəl Televiziya kanalının bağlanmasını pisləyir

BAKI, 24 noyabr 2006-cı il – Bugun ATƏT-in Bakı Ofisi ANS-in, Azərbaycanda ilk özəl Televiziya və Radio kanalının bağlanması ilə bağlı dərin narahatlığını bildirdi.

24 noyabr 2006-cı il Azərbaycanın Milli Tele Radio Şurası ANS Televiziyası və ANS ÇM Radio Stansiyalarının lisenziyasının uzadılmaması ilə bağlı qərar qəbul etdi.

“Biz ölkənin beynəlxalq ictimayyət tərəfindən və ATƏT/DTHİB-nin hesabatlarında dəfələrlə qeyd olunduğu kimi yeganə obyektiv kanalının bağlanmasından çox narahatıq,” deyə ATƏT-in Bakı Ofisinin rəhbəri Səfir Maurisio Pavesi bildirmişdir.

“Mən heç bir əsas olmadan qəbul olunan qərarın dərhal icra olunmasından artıq dərəcədə təəcüblənirəm. Həmin qərara şikayyət etmək imkanına da məhəl qoyulmayıb."

ANS TV və ANS Ç.M. radiostansiyası 24 noyabr 2006-cı il 15:00-dan başlayaraq yayımını dayandırıb. MTRŞ eyni zamanda şirkətin peyk yayımını da dayandırıb. ANS TV and ANS Ç.M. radiostansiyası 2003-cü ildən başlayaraq vaxtı ötmüş lisenziyasının müddətinin uzaldılmasını gözləyirdi.

MTRŞ öz qərarını  “qanunvericiliyin mütəmadi pozulması, Televiziya və Radio Şurası tərəfindən verilən rəsmi xəbərdarlıq və cərimə sanksiyalarına məhəl qoyulmaması və qanun pozuntuları ilə bağlı  Şura tərəfindən  verilən irad və xəbərdarlıqlara qeyri-səmimi münasibətin nümayiş etdirilməsi” ilə əsaslandırdı.